


***- Qeyri-tibb müəssisələrində ilk növbədə hansı sahələr dezinfeksiya edilməlidir?***

**COVID-19** virusu ilə çirklənmə dərəcəsini minimuma endirmək üçün yaşayış evləri, ofis binaları, təhsil müəssisələri, bazarlar, idman zalları, ictimai müəssisələr, dini icma mərkəzləri, nəqliyyat və iş infrastrukturu obyektləri və ya restoranlar kimi mülki bina və tikililərdə dezinfeksiya işlərinin aparılması çox vacibdir. İnsanların daha çox təmasda olduğu səthləri, məsələn, qapı, pəncərə tutacaqları, mətbəx və qida hazırlanan əşyalar, masaların üst taxtası, sanitar qovşaq səthləri, unitaz və kranlar, mobil telefonlar və planşetlər, fərdi kompüter klaviaturaları və işçi səthlər dezinfeksiya edilməlidir.

***- Qeyri-tibb müəssisələri şəraitində COVID-19 virusu törədicisinə qarşı hansı dezinfeksiyaedici vasitələr effektlidir?***

Qeyri-tibb müəssisələrində tövsiyyə edilən 0,1% konsentrasiyada hipoxlorid-natriumun istifadəsinə icazə verilir. Bununla yanaşı, səthi dezinfeksiya etmək üçün 70-90%-li spirtin istifadəsinə də icazə verilir. Bütün səthlər su, sabun və ya yuyucu vasitələrlə üzvi çirkləndiricilərdən təmizlənməklə ilkin işləmədən keçir, daha sonra isə dezinfeksiya aparılır.

Dezinfeksiyaedici vasitələrin bütün məhlullarını qeyri-şəffaf qablarda düz düşən günəş şüalarından qorunan, yaxşı havalandırılan bağlı otaqlarda saxlamaq məsləhətdir.

**COVID-19** infeksiyası ilə mübarizə üçün qapalı otaqlarda səthlərin çiləmə üsulu ilə işlənməsi məsləhət görülmür, onu dezinfeksiyaedici vasitədə isladılmış salfet və ya əskinin köməyi ilə silmək lazımdır.



***- Dezinfeksiyaedici vasitələrin istifadəsi zamanı hansı ehtiyat tədbirləri görülməlidir?***

Dezinfeksiyaedici vasitələrin istifadəsi zamanı riskin azaldılmasına yönəlmiş bir neçə tədbirlərin görülməsi vacibdir:

-Tənəffüs yollarını qıcıqlandıra bilən, həmçinin potensial zəhərli qazların yaranma riski olan müxtəlif dezinfeksiyaedici, məsələn, hipoxlorid əsaslı və ammonyak əsaslı vasitələrin qarışdırılması məsləhət deyil;

-Vasitənin istifadəsindən sonra islanmış səthlər tam quruyana və qoxusu itənə qədər otağa digər insanların, uşaq və ev heyvanlarının daxil olmasına yol verilmir;

-Otağın havalandırılması üçün pəncərələri açmaq və ventilyatorları qoşmaq vacibdir. Həddindən artıq qoxu gələrsə, işlənməni dayandırmaq lazımdır. Dezinfeksiyaedici vasitələrin işçi məhlullarının hazırlanması üçün havalandırılan otaqlarda həyata keçirilməlidir;

-İstənilən dezinfeksiyaedici vasitələr ilə, o cümlədən, səthlərin təmizlənməsi üçün istifadə edilən salfetlərlə təmasdan sonra əllərinizi yuyun;

-Təmizlik işləri aparılan zaman istisna olmaqla, məhlul olan qablar hər zaman qapalı olmalıdır. Qabın ağzı açıq olduqda ona toxunaraq məhlulu tökmək ehtimalı yüksəkdir;

-Uşaqların dezinfeksiyaedici vasitə ilə islanmış salfetlərlə oynamasına imkan verməyin. Təmizləyici və dezinfeksiyaedici vasitələrlə olan qabları uşaq və ev heyvanlarından uzaq tutmaq vacibdir;

-Təmizlik zamanı birdəfəlik istifadə üçün nəzərdə tutulan əlcək və

maskalardan istifadə edilibsə, onları atmaq lazımdır;

-Dezinfeksiyaedici vasitə olan salfetlərin əlləri silmək üçün və ya uşaq gigiyenası vasitəsi kimi istifadəsinə icazə verilmir;

-Qeyri tibb müəssisələrində səthlərin dezinfeksiyası zamanı istifadəsi tövsiyə edilən fərdi mühafizə vasitəsinin dəstinə rezin əlcəklər, islanmayan önlüklər, tibbi maska, eynək və bağlı ayaqqabılar daxildir.

***- Açıq ərazilərin, məsələn, bazar və yolların dezinfeksiyasını necə həyata keçirmək lazımdır?***

**COVID-19** virusu törədiciləri və ya digər patogen mikroorqanizmlərlə küçə və bazar kimi açıq yerlərin çiləmə və ya fumiqasiya yolu ilə geniş işlənməsi məsləhət deyil. Küçə və səkilər hal-hazırda COVID-19 infeksiyasının yayılma faktoru kimi qiymətləndirilmir. Dezinfeksiyaedici vasitələrin açıq yerlərdə çiləməsi insanların sağlamlığı üçün təhlükə törədə bilər, gözlərin, tənəffüs yollarının, dərinin qıcıqlanma və zədələnməsinə səbəb ola bilər.

***- İctimai yerlərdə, məsələn, dezinfeksiya olunmuş tunel və ya palatalarda insanların dezinfeksiyası üçün qurğuların istifadəsi təhlükəlidirmi?***

-Xeyr.

İnsanların dezinfeksiyaedici vasitələrlə çilənməsi heç bir halda tövsiyə edilmir. Bu işlənmə üsulu zərərli fiziki və psixoloji təsir göstərə bilər və xəstə şəxsin virus ifrazını və xəstəliyin hava-damcı və təmas-məişət yolu ilə yayılmasının qarşısını almır. Hətta COVID-19 virusuna yoluxmuş dezinfeksiya olunmuş tunel və ya kameradan keçən insan danışdıqda, öskürdükdə və ya asqırdıqda virusu yaya bilər.

İnsanların toksiki - kimyəvi, məsələn, xlor tərkibli maddələrlə çilənməsi göz və dərinin qıcıqlanmasına; inhalyasiya yolu ilə daxil olduqda isə bronxospazm və mədə-bağırsaq traktının funksiyasının pozulmasına gətirib çıxara bilər.




*Material Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə əsasən hazırlanmışdır.*

**"Respublika Gigiyena və Epidemiologiya Mərkəzi" PHŞ**

# Koronavirus infeksiyası (COVID-19) zamanı qeyri-tibb müəssisələrində səthlərin təmizlənməsi və dezinfeksiya edilməsi

